# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 may tarixli 60 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin müraciəti nəzərə alınaraq, Naxçıvan Musiqi Kollecinin ali təhsilli müəllim heyəti ilə tam komplektləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 may tarixli 60 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın 2.2-ci bəndinin ikinci cümləsində "1,5" rəqəmləri "2" rəqəmi ilə əvəz edilsin.

2. Bu Qərar növbəti tədris ilinin sonunadək qüvvədədir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, 8 may 2021-ci il

№ 126